MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

ÇAY MƏDƏNİYYƏTİ: TARİXİ, SOSİAL ROLU VƏ MƏRASİM ƏNƏNƏLƏRİ
Ceyhun İsmayılov 201

İFTARIN SOSİAL VƏ DİNİ ƏHƏMİYYƏTİ
Əhməd Niyazov 211

SEYİD YƏHYA BAKUVİNİN "ŞƏFAÜL-ƏSRAR" ƏSƏRİNDƏ SUFİ ORUCU VƏ
MİR HƏMZƏ SEYİD NİGARİNİN "ÇAYNAMƏ" MƏSNƏVİSİNDƏ ÇAY MƏDƏNİYYƏTİ
ƏSASLI SUFİ ƏDƏBİ
Fariz Xəlilli 217

BAYRAM FENOMENİ: SOSİAL ZAMAN, QONAQPƏRVƏRLİK, PAYLAŞMA VƏ
BARIŞIN RİTUAL MƏDƏNİYYƏTİ
Pərvin Ahənçi 222

ƏNƏNƏDƏN İRSƏ: NOVRUZ MƏRASİMLƏRİ KOLLEKTİV YADDAŞ VƏ
İDENTİKLİK KONTEKSTİNDƏ
Pərvin Ahənçi 243

NOVRUZ OYUNLARI VƏ XALQ ƏYLƏNCƏLƏRİ
Kübra Əliyeva 258

NAR FESTİVALININ KEÇİRİLMƏSİ TARİXİ VƏ GÖYÇAY RAYONUNUN İQTİSADİ,
SOSİAL-MƏDƏNİ HƏYATINDAKI ROLU
Adil Məmmədov 268

NARIN AZƏRBAYCAN MƏDƏNİYYƏTİNDƏ YERİ VƏ SİMVOLİKASI
Ümidə Məcnunlu 273

"SƏMƏNİ" ADLI QƏDİM VƏ MÜQƏDDƏS MAYE-İÇKİNİN HAZIRLANMA ƏNƏNƏSİNİN
BƏRPASINA DAİR
Kübra Əliyeva 276

SƏDƏF SƏNƏTİ: TARİXİ, MAHİYYƏTİ VƏ TƏTBİQİ
Balabəy Balabəyov 283

AZƏRBAYCAN MUĞAMI HAQQINDA BƏZİ QEYDLƏR
Mehman Mikayılov 286

FOTOLAR 290

NOVRUZ OYUNLARI VƏ XALQ ƏYLƏNCƏLƏRİ

Kübra Əliyeva
Sənətşünaslıq elmləri doktoru, professor
AMEA Arxeologiya və Antropologiya İnstitutu
https://doi.org/10.30546/19023.2026.1001.380

Giriş. Novruz bayramı Azərbaycan xalqının ən qədim və zəngin ənənələrə malik mərasimlərindən biri kimi xüsusi əhəmiyyət daşıyır. Azərbaycanlılar, bir sıra Şərq xalqları kimi, Qurban bayramı ilə yanaşı Novruzu da digər bayramlarla müqayisədə daha təntənəli və geniş şəkildə qeyd edirlər. Bu, Novruzun xalqın həyatında dərin köklərə malik olması, əsrlər boyu formalaşmış ənənələrlə zənginləşməsi və milli-mədəni identikliyin mühüm tərkib hissəsinə çevrilməsi ilə izah olunur.

Novruz təbiətin oyanışı, həyatın yenilənməsi və yeni başlanğıcların rəmzi kimi qəbul edilir. Bu bayramın qeyd olunması yaz fəslinin gəlişinin qarşılanması ilə bağlıdır. Astronomik baxımdan Novruz günəşin illik hərəkəti nəticəsində gecə və gündüzün bərabərləşdiyi, yəni yaz bərabərliyi anının baş verdiyi dövrə təsadüf edir. Bu zaman günəş cənub yarımkürəsindən şimal yarımkürəsinə keçir və şimal yarımkürəsində astronomik bahar başlanır.

Novruz bayramının tarixi çox qədim dövrlərə gedib çıxır və onun izlərinə hələ qədim sivilizasiyalarda, o cümlədən şumerlərdə rast gəlinir. Şərq xalqlarında olduğu kimi, Azərbaycan xalqı da Novruza xüsusi hazırlıq mərhələsi ilə yanaşır. Bu hazırlıqlar adətən bayrama təxminən bir ay qalmış - "kiçik çilə" dövrü başa çatdıqdan sonra başlanır.

Hazırlıq mərhələsi əsasən evlərin və həyətlərin təmizlənməsi, abadlaşdırılması ilə xarakterizə olunur. İnsanlar ev-eşiyini səliqəyə salır, qapı-bacanı təmizləyir, xalça-palazları, yorğan-döşəyi çırpır və ümumilikdə yaşayış mühitini yeniləyirlər. Bu proses yalnız fiziki təmizlik deyil, eyni zamanda mənəvi saflaşma və yeni ilə təmiz niyyətlə daxil olma ideyasını da özündə ehtiva edir.

Novruz bayramının əsas xüsusiyyətlərindən biri onun bolluq və bərəkət rəmzi kimi zəngin süfrə və müxtəlif təamlarla qarşılanmasıdır. Bayram ərəfəsində səməni cücərdilməsi xüsusi yer tutur və bu, təbiətin dirçəlişinin, həyatın yenilənməsinin simvolu kimi qəbul edilir. Eyni zamanda, "müqəddəs səməni içkisi"nin hazırlanması üçün buğda cücərdilir, ona müxtəlif quru meyvələr, qoz-fındıq əlavə olunur və hazırlanmış qarışıq qonşulara və yaxınlara paylanır. Bu ənənə paylaşma və birlik ideyasını əks etdirir.

Bayram süfrəsi müxtəlif milli şirniyyatlarla zənginləşdirilir. Şəkərbura, paxlava, şəkərçörəyi, qoğal kimi ənənəvi şirniyyatların hazırlanması, yumurtaların boyanması və qorğanın qoyulması Novruzun ayrılmaz atributlarıdır. Bu mərasim elementləri həm estetik, həm də simvolik məna daşıyaraq bolluq, firavanlıq və həyat enerjisini ifadə edir.

Ailə daxilində maddi imkanlardan asılı olaraq bayrama yeni geyimlərlə hazırlaşmaq da geniş yayılmış ənənələrdəndir. Kiçikdən böyüyə qədər ailə üzvlərinin yeni paltar geyinməsi yenilənmə və təzələnmə ideyasını simvolizə edir. Xüsusilə qız-gəlinlərin "Bahar" adlanan geyimlərdən istifadə etməsi mövsümi dəyişikliklərin estetik ifadəsi kimi diqqət çəkir. Eyni zamanda, nişanlı qızlara Novruz xonçasının aparılması - xalq arasında "bayramlıq aparmaq" adlandırılan bu ənənə - ailə və qohumluq münasibətlərinin möhkəmləndirilməsində mühüm rol oynayır.

Novruz bayramı yalnız məişət və mərasim xarakterli ənənələrlə deyil, həm də yüksək mənəvi dəyərlərlə zəngindir. Bayram günlərində ağsaqqallar və ağbirçəklər küsülü tərəfləri barışdıraraq cəmiyyət daxilində həmrəyliyin və sosial harmoniyanın bərpasına töhfə verirlər. Digər diqqətəlayiq adətlərdən biri "mürvət toyu"dur. Bu ənənəyə əsasən, icma üzvləri bir araya gələrək valideynlərini

itirmiş gənclər üçün toy mərasimi təşkil edir, hətta onların məskunlaşması üçün ev tikintisinə dəstək göstərirdilər.

Novruz bayramına yaxın dövr, xüsusilə də axır çərşənbə mərasimi ən təntənəli və canlı şəkildə qeyd olunan mərhələlərdən biri hesab olunur. Bu günlərdə xalq arasında müxtəlif musiqili və teatr elementli xalq oyunları təşkil edilir, saz çalınır, rəqslər ifa olunur və kollektiv əyləncə mühiti formalaşır. "Xan-xan", "Kosa-kosa", "Təkəçi", "Dirədöymə", "Zorxana", "Kəndirlər" və "Yeddi hünər" kimi meydan tamaşaları və oyunlar xalqın sosial həyatında mühüm yer tutur.

"Xan-xan" oyunu bu ənənələr arasında xüsusi maraq doğurur. Bu oyunda icma üzvləri tərəfindən hörmətli və nüfuzlu bir şəxs "xan" seçilir. Novruza bir neçə gün qalmış bu "xan" xalqdan toplanan vəsait hesabına yolların, arxların və su dəyirmanlarının təmirini təşkil edir. Bütün bu işlər musiqi müşayiəti ilə, şən və bayram ab-havasında həyata keçirilir ki, bu da əmək və əyləncənin sintezini nümayiş etdirir [3].

"Yeddi hünər" adlı meydan tamaşasında isə gənclər öz bacarıq və qabiliyyətlərini nümayiş etdirirlər. Bu çərçivədə qızlar və oğlanlar müxtəlif praktik bacarıqları - məsələn, toxuculuq, yemək hazırlama, atçılıq, çeviklik və fiziki güc tələb edən fəaliyyətləri - ictimai şəkildə icra edərək yarışır və qaliblər müəyyən edilir. Bu ənənə həm əmək vərdişlərinin təşviqi, həm də gənclərin sosiallaşması baxımından mühüm əhəmiyyət daşıyır.

Tarixi mənbələr göstərir ki, Novruz bayramı yalnız mədəni və məişət səviyyəsində deyil, eyni zamanda dövlət idarəçiliyi və ictimai münasibətlər sistemində də mühüm rol oynamışdır. XI əsrdə yaşamış Nizamülmülkün "Səyahətnamə"sindən məlum olur ki, bayrama bir neçə gün qalmış carçılar şəhəri, meydanı və bazarı gəzərək şah sarayının xalqın üzünə açıq olduğunu elan edirdilər. Xalq saraya toplaşaraq öz şikayətlərini birbaşa hökmdara çatdırırdı. Şah isə taxtdan enərək baş məbudun qarşısında diz çökür və şikayət edən şəxsin iddiasının dinlənilməsini və ədalətli hökm verilməsini istəyirdi. Bundan sonra məhkəmə qurulur, şikayətlərə obyektiv şəkildə baxılır və ədalətli qərar qəbul edilirdi [8].

Xalq arasında "Nünnünü", "Baca-baca", "Qulaq falı", "İki kosa", "Yumurta basdırma", "Şal sallama" və ya "Torba atma" kimi tanınan adət və mərasimlər ilin axır çərşənbəsində icra olunan mühüm ənənələr sırasına daxildir [9, s. 2]. Bu adətlər xalqın inanclarını, estetik zövqünü və sosial münasibətlər sistemini əks etdirən zəngin mədəni irs nümunələri kimi çıxış edir.

Bütün bu ənənələr Azərbaycan xalqının hər bir üzvü üçün doğma və dəyərli olub, sanki nəsildən-nəslə ötürülən mənəvi miras kimi qəbul edilir. Təsadüfi deyildir ki, Azərbaycanın görkəmli şair və yazıçıları Novruz adət və ənənələrini öz bədii yaradıcılıqlarında geniş şəkildə əks etdirmiş, onların qədim və orijinal formalarını qoruyub saxlamışlar.

Bu baxımdan Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Məhəmmədhüseyn Şəhriyarın "Heydər babaya salam" əsəri xüsusi əhəmiyyət kəsb edir. Şair bu poemasında yalnız öz gənclik xatirələrini bədii şəkildə təsvir etməklə kifayətlənmir, eyni zamanda Novruz bayramı ilə bağlı adət-ənənələri də dərin sevgi və nostalji hisslərlə oxucuya təqdim edir. Xüsusilə Novruz mərasimlərinin ayrılmaz hissəsi olan şal sallama adəti əsərdə canlı və təsirli bədii təsvir vasitəsilə əks olunmuşdur ki, bu da xalq yaddaşında yaşayan ənənələrin ədəbiyyatda qorunub saxlanmasının parlaq nümunəsi kimi qiymətləndirilə bilər.

Bayram idi, gecə quşu oxurdu,
Adaxlı qız bəy corabın toxurdu,
Hər kəs şalın bir bacadan soxurdu,
Ay nə gözəl qaydadı şal sallamaq,

Bəy şalına bayramlığın bağlamaq.
Şal istədim mən də, evdə ağladım,
Bir şal alıb tez belimə bağladım,
Qulamgilə qaçdım, şalı salladım,
Fatma xala mənə corab bağladı,
Xan nənəmi yada salıb ağladı [12].

Şəhriyar əsərin bu hissəsində şal sallamaqdan, şala qoyulan bayram payından və adaxlı qızların bayram üçün toxuduqları bəy corabından bəhs edir. Bu adətlər xalq arasında ya şal sallama, ya da baca-baca adlanırdı. Adətə görə cavan uşaqlar çərşənbə axşamı bir yerə hədiyyələri toplamalı idilər. Bunun üçün, uşaqlar evlərin damına çıxıb, şal və ya ucuna ip bağlanmış torbanı bacadan sallayır və eyni zamanda ev sahibinə bildirmək üçün qışqır-bağır salır. Lakin şalın kim tərəfindən salladığını bildirmək üçün uşaqlar barmaqlarını burunlarına qoyub başqa səs çıxarırdılar. Bu səs çıxarmağa xalq arasında "nünkünü" deyirlər. Və adətə görə şal və ya torbanı heç vaxt boş qaytarmaq olmaz, evdə olan ən gözəl yeməklər, şirniyyat, quru meyvələr, pay-pürüş-corab, yaylıq, dəstəmaz və s. şala qoyulur. Başqa sözlə, bayram şalına qoymaq üçün evə alınan hər şey artıqlaması ilə alınardı.

Şəhriyarın poemasında "Adaxlı qız bəy corabı toxurdu" misrasına gəlincə qeyd etməliyik ki, Azərbaycanda yaxın keçmişə qədər corab, adaxlı qızların cehizinə daxil olan əsas əşyalardan biri idi. Nişanlı qızlar ər evinə aparmaq üçün toxuduqları xalça-palazdan əlavə qaynana, qaynata və gələcək əri üçün yundan dizə qədər, qış corabı ipəkdən topuğa qədər yay corabı aparardılar. Bayram corabları isə xüsusi zövqlə bəzənərdi. Çünki adaxlı qıza şirniyyat və pal-paltarla dolu bayram xonçası gələndən sonra, xonça geriyə boş qaytarılmazdı, xonça qabağına gözəl corablar və köynəklər qoyulardı.

Ay nə gözəl qaydadı şal sallamaq,
Bəy şalına bayramlığın bağlamaq.

Şəhriyar bu gözəl adəti nəzərə alaraq özünü nişanlı qalan bəy kimi təsəvvür edir və "Fatma xala mənə corab bağladı" deyə ifadə edir. Yəni şalına corab qoyulduğunu bildirir.

Yuxarıda qeyd edildiyi kimi, bayram ərəfəsində evlərin ağardılması və bəzədilməsi ənənəsi ilə bağlı Məhəmmədhüseyn Şəhriyar belə yazır:

Bayram oldu qızıl palçıq əzərlər,
Naxış vurub otaqları bəzərlər.
Taxçalarda düzmələri düzərlər.

Məlum olduğu kimi, xüsusilə ucqar kənd yerlərində bu günə qədər evlər bayramqabağı palçıqla şirələnərək təmizlənir və bəzədilir. Novruz bayramı ərəfəsində qızlar və gəlinlər ənənəvi olaraq rəngarəng, naxışlı geyimlərdən istifadə edirlər. Bu geyimlər arasında ən çox üstünlük verilən rəng günəşin və həyatın rəmzi kimi qırmızı rəngdir. Əl və ayaqların qırmızı rənglə boyanması isə bayramın mühüm atributlarından biri olub, öz mənşəyi etibarilə qədim dövrlərə gedib çıxır. Bu məqsədlə istifadə olunan əsas vasitə xınadır. Xına yalnız Novruz mərasimlərində deyil, eyni zamanda toy ənənələrində də, xüsusilə "xınayaxdı" mərasimində geniş şəkildə tətbiq olunur. Novruz zamanı da qızlar və gəlinlər əl və ayaqlarına xına yaxır, əlin ortasına isə noxud böyüklüyündə xına xal qoyurlar ki, bu da xalq arasında "fındıqca" adlanır [2, s. 4]. Bu ənənə ilə bağlı Məhəmmədhüseyn Şəhriyar belə yazır:

Qız-gəlinin fındıqçası, hənası,
Həvəslənər anası, qaynanası.

Məlum olduğu kimi, axır çərşənbə axşamı, yəni Novruzun ən təntənəli günü hər evdə, obada, həyətlərdə və küçələrdə tonqallar qalanır. Tonqal üçün əvvəlcədən odun, çırpı və digər yanacaq materialları toplanır. Adətən ailələr üçdən on ikiyə qədər tonqal qalayır, bunlardan ən böyüyü isə ən hündür yerdə yandırılırdı. Keçmişdə qürbətdə olan insanlar üçün də ayrıca tonqal qalanar, insanlar onun üzərinə üzərlik ataraq belə deyərdilər:

Üzərliksən, havasan,
Min bir dərdə davasan.
Səni oda salaram,
Qada-bala sorasan.

Azərbaycanın bəzi bölgələrində axır çərşənbə günü səhər tezdən, günəş çıxmamış gənc qızlar axar suyun üzərindən, axşam isə tonqalın üzərindən yeddi dəfə tullanardılar. Bu zaman Şəhriyarın aşağıdakı misralarını səsləndirərdilər:

Qızlar deyər: "Atıl-matıl, çərşənbə,
Ayna təkin bəxtim açıl, çərşənbə".

Beləliklə, qocalar, cavanlar və uşaqlar tonqal üzərindən atlanaraq "ağırlığım-uğurluğum, azarım-bezarım odda yansın", qızlar isə "atıl-matıl, bəxtim açılsın" deyə diləklər edirlər. Bu mərasim təmizlənmə, yenilənmə və yeni ümidlərlə həyata başlama ideyasını ifadə edən qədim inancların davamı kimi çıxış edir.

Novruz bayramında süfrəni bəzəyən əsas atributlardan biri də yumurtadır. Yumurta boyama ənənəsi "xınayaxdı" kimi qədim mərasimlər sırasına daxildir. Bayram ərəfəsində gənc qızlar və uşaqlar bir araya gələrək bişmiş yumurtaları xüsusi zövqlə boyayır, hər evdə onları müxtəlif ornamentlərlə bəzəyirlər. Bu bəzəklərin əsasını adətən gül, yarpaq və budaq təsvirləri təşkil edir ki, bu da yazın gəlişini və təbiətin oyanışını simvolizə edir. Ümumilikdə isə Novruz kontekstində yumurta yeni yaranışın, doğuluşun və başlanğıcın rəmzi kimi çıxış edir. Boyanmış yumurtalar yalnız dekorativ funksiyaya malik olmur, eyni zamanda bayram oyunlarının da mühüm elementidir. Belə ki, uşaqlar və gənclər yumurtaları bir-birinə vuraraq "döyüşdürür", sınan yumurtaları isə dərhal soyub yeyirlər. Bu bayram ənənələri ilə bağlı Məhəmmədhüseyn Şəhriyar belə yazır:

Yumurtanı göyçək-güllü boyardıq,
Çaqqışdırıb sınanların soyardıq.
Oynamaqdan bircə məgər doyardıq?

Novruz bayramında yumurta həm də bayram sovqatlarının ayrılmaz hissəsidir. Torbaya, şala və digər bayram hədiyyələrinə yumurta qoymaq əsas adətlərdən hesab olunur. Ənənəyə görə, evdə neçə nəfər varsa, hər biri üçün ayrıca hədiyyə hazırlanır və hər paya ən azı bir yumurta əlavə edilir. Fransız səyyahı Jean Chardin qeyd edir ki, Novruz bayramında ev sahibinə yumurta hədiyyə etmək ona və ailəsinə can sağlığı və rifah arzulamaq mənasını daşıyır [11].

Orta əsr fransız səyyahlarının qeydlərinə görə, Azərbaycanda qeyd olunan Novruz bayramı "gül-çiçək bayramı" kimi xarakterizə edilmişdir. "Zeyn əl-əkbər" əsərində isə Zərdüştilik ənənələrinə aid 36 bayramın adı çəkilir ki, bunların içərisində üç bayram xüsusilə diqqəti cəlb edir: "Gül-çiçək bayramı", "Qadınlar bayramı" və "Bəhməncə" bayramı.

"Gül-çiçək bayramı" yazın ilk aylarında, xüsusilə qızılgülün açdığı dövrdə keçirilirdi. Bu mərasim təbiətin oyanışı və estetik gözəlliyin təntənəsi kimi qəbul olunur, xalq arasında "gül bayramı" adı

ilə qeyd edilirdi.

"Qadınlar bayramı" haqqında isə Əl-Biruni "İsfəndərməz" adı ilə bəhs edir. Bu bayram mart ayının 5-də, Avesta təqviminə görə ilin son ayı olan İsfənddə qeyd olunurdu. "İsfəndərməz" paklıq, sədaqət və ailə dəyərlərinin qoruyucusu sayılan qadın ilahəsi kimi təqdim edilir. Zərdüştilik inancına görə o, yeddi müqəddəs varlıqdan biri olub, yerin abadlığı və gözəlliyi ilə əlaqələndirilirdi. Rəvayətlərə əsasən, onun sevimli gülü "bidmişk" hesab edilirdi. Bu səbəbdən Novruz ərəfəsində kişilər qadınlara bidmişk hədiyyə edir, həmin gülün ətirli suyu isə çaya əlavə olunaraq istifadə edilirdi.

Üçüncü mühüm bayram isə kiçik çilənin başa çatması ilə əlaqədar qeyd edilən "Bəhməncə" bayramıdır. Bu dövrdə qarın əriməsi və təbiətdə ilk bitkilərin görünməsi ilə baharın yaxınlaşdığı hiss olunur. "Bəhmən gülü" adlanan qırmızı çiçəyin açması yazın ilk nəfəsinin duyulmasının simvolu kimi qəbul edilir. "Bəhməncə" bayramı münasibətilə müxtəlif göyərti növləri, paxla, mərci, noxud və ət qatılaraq xüsusi yemək hazırlanır və camaata paylanırdı. Bayramın maraqlı cəhətlərindən biri də "Bəhmən" gülünün şirəsinin içilməsi ilə bağlıdır ki, bu da həm rituallıq, həm də təbiətlə bağlılığın ifadəsi kimi qiymətləndirilir [1, s. 4].

Xalq arasında bu gün də geniş yayılmış "Novruz gülü" və ya "qar çiçəyi"nin açması baharın gəlişinin əsas müjdəçilərindən biri hesab olunur. Bu çiçəyi toplamaq üçün uşaqlar dağlara, çəmənliklərə üz tutur, topladıqları gülləri isə bir-birinə hədiyyə edirlər. Bu ənənə təbiətlə insan arasında bağlılığın və paylaşma mədəniyyətinin ifadəsi kimi çıxış edir. Bu barədə Şəhriyar öz xatirələrində belə yazır:

Bayram yeli çardaxları yıxanda,
Novruz gülü, qar çiçəyi çıxanda,
Ağ buludlar köynəklərin sıxanda
Əli mənə yaşıl aşı verərdi,
Irza mənə novruzgülü dərərdi.

Beləliklə, ölməz şair Məhəmmədhüseyn Şəhriyarın "Heydər babaya salam" poeması yalnız onun şəxsi uşaqlıq və gənclik xatirələrini deyil, eyni zamanda hər bir azərbaycanlının kollektiv yaddaşını əks etdirən bədii irs nümunəsi kimi çıxış edir. Şairi bir daha yad edərək onun poemasının son misralarını xatırlamaq yerinə düşər:

Aşıq deyər: bir nazlı yar var imiş,
Eşqindən adlanıb yanar var imiş,
Bir sazlı, sözlü Şəhriyar var imiş.
Odlar sönüb, onun odu sönməyib,
Fələk çönüb, onun çarxı çönməyib [4, s. 4-5].

Məqalə müəllifi uzun illər ərzində Azərbaycanın müxtəlif bölgələrində xalqın yaşayış tərzini və mərasimlərini müşahidə edərək bir sıra ənənəvi oyunları qeydə almışdır. Bu oyunlar sırasında "Kilimarası", "Maral", "Çilingağac", "Moza-moza", "Kəndirbaz", "Gizlənpaç", "Lək-tək", "Dirədöymə", "Dala dəsmal", "Beşdaş", "Məkə", "Qaçdı-tutdu", "Düymə-düymə", "Yeddi hünər" və digər oyunlar xüsusi yer tutur. Bu oyunlar xalqın sosiallaşma prosesində, kollektiv davranış bacarıqlarının formalaşmasında və mədəni ənənələrin qorunub saxlanılmasında mühüm rol oynayır.

"Yeddi hünər" qədim və maraqlı xalq oyunlarından biri olub, əsasən toy mərasimləri zamanı, xüsusilə gəlin gətirilərkən aşıqların saz müşayiəti ilə nümayiş etdirilirdi. Bu oyun müxtəlif formaları ilə tanınır və "Yeddi çoban", "Yeddi pəri", "Yeddi çapar", "Yeddi nər", "Yeddi qaçar", "Yeddi ovçu" və "Yeddi gəlin" kimi növləri əhatə edir [6, s. 18-19].

“Yeddi çoban” oyununda yeddi nəfər iştirak edir və istifadə olunan əşyaların sayı da simvolik olaraq yeddi olur. Oyuna əvvəlcədən hazırlıq görülür və onu icmanın hörmətli ağsaqqalı və ağbirçəyi idarə edir. Hərəsinin əlində çomaq olan yeddi çoban meydana çıxaraq müəyyən qayda ilə yarışa başlayır. Çobanlardan biri çomağını yuxarı qaldırır, digərləri isə növbə ilə ona zərbələr endirir. Əgər çoban zərbələrə baxmayaraq çomağı əlindən salmazsa, həm özü, həm də iştirakçılar qalib hesab olunur və mükafatlandırılır.

“Yeddi pəri” oyununda isə yeddi qız iştirak edir. Ağbirçək hər birinə yeddi mil və yeddi rəng ip verir. Onun işarəsi ilə qızlar corab toxumağa başlayır. Müəyyən vaxtdan sonra toxuma dayandırılır və ən çox və keyfiyyətli iş görən iştirakçı qalib elan olunur.

“Yeddi çapar” oyununda yeddi atlı iştirak edir. Yol kənarında bağlanmış yeddi erkək qoyundan birini hər bir iştirakçı at üzərində sürətlə hərəkət edərkən götürüb geri qayıtmalıdır. Bu tapşırığı uğurla yerinə yetirən qalib sayılır.

“Yeddi nər” oyununda əvvəlcədən hazırlanmış yeddi iri heyvan (kəl və ya cöngə) meydana çıxarılır. İştirakçılar növbə ilə öz fiziki güclərini sınayır, heyvanı yerə yıxa bilən şəxs qalib elan edilir.

“Yeddi qaçar” yarışında iştirakçılar maneələrlə dolu məsafəni qət edərək uzaqda yerləşən yeddi küləş topasından birinə çatmalı, onu dağıdıb geri qayıtmalıdırlar. Tapşırığı ən sürətli və düzgün yerinə yetirən qalib olur.

“Yeddi ovçu” oyununda isə müəyyən məsafədə basdırılmış yeddi paya “düşmən” kimi təsvir edilir. İştirakçılar hərəsi bir oxla bu hədəfləri vurmağa çalışır və dəqiqlik nümayiş etdirən qalib hesab olunur.

Beləliklə, “Yeddi hünər” oyunları yalnız əyləncə xarakteri daşımır, həm də fiziki çeviklik, əmək bacarıqları, dəqiqlik və kollektiv ruh kimi keyfiyyətlərin inkişafına xidmət edən zəngin folklor nümunəsi kimi çıxış edir.

“Yeddi gəlin” oyunu “Yeddi hünər” silsiləsinin maraqlı və məişət yönümlü nümunələrindən biridir. Oyun başlanarkən yeddi yerdə ocaq qalanır, yeddi qazan asılır və yeddi gəlinin hər biri həmin qazanların birində xörək bişirməklə məşğul olur. Oyun başa çatdıqdan sonra bütün iştirakçılar süfrə arxasına toplaşır və bişirilmiş yeməklər dadılır. Hansı gəlinin hazırladığı xörək daha dadlı hesab edilərsə, qalib elan olunur və ona nəmər verilir.

Qocaların söylədiklərindən məlum olur ki, “Yeddi hünər” oyunlarının hər birinin əvvəlində ağsaqqal və ağbirçəklər iştirakçıların şəninə ruhlandırıcı şeirlər söyləyərmişlər. Bu şeirlər oyunçuların həvəsini artırmaq, onları mənəvi baxımdan dəstəkləmək məqsədi daşıyırdı. Məsələn, çobanların şəninə deyilən şeir belə səslənirdi:

Çoban hey!
Qoy dillənsin qarğı, ney,
Yarım baxar qıyqacı,
Möhkəm saxla ağacı.
Ağac əldən çıxmasın,
Yarın məlun baxmasın.

Çaparların şəninə deyilən şeir isə aşağıdakı kimidir:

Çapar hey!
Çap, yerdən od qopar hey.
Yarın baxır, vaxt ötür,

Erkəyi yerdən götür.
Yarın baxıb öyünsün,
Qəlbi gülüb söyünsün [6, s. 18-19].

"Kilimarası" xalq teatr ənənələrinə yaxın olan və mərasim xarakteri daşıyan maraqlı oyun-tamaşa növlərindən biridir. Bu tamaşa zamanı aşıqların saz müşayiəti ilə iki nəfər ifaçı kilimin arxasında kuklaları hərəkət etdirərək müxtəlif məişət süjetlərini, "gəlin və qaynana", yaxud "gəlin və aşna" kimi mövzuları səsləndirirlər. Beləliklə, "Kilimarası" həm kukla teatrı elementlərini, həm də şifahi xalq yaradıcılığı ənənələrini özündə birləşdirən sinkretik bir sənət forması kimi çıxış edir.

Bu mərasim-tamaşa haqqında bir sıra Azərbaycan alimləri, o cümlədən Mahmud Allahverdiyev ("Azərbaycan xalq teatr tarixi"), Əli Sultanlı ("Azərbaycan dramaturgiyasının inkişaf tarixindən") və Elçin Aslanov ("El-oba oyunu xalq tamaşası") öz tədqiqatlarında məlumat vermişlər. Eyni zamanda Şərq mədəniyyəti üzrə tanınmış tədqiqatçılar, A.Makavelski, A.Krımski və İ.Berezin Azərbaycan xalq oyun-tamaşalarından bəhs edərkən bu kimi ənənələri "kukla teatrı" mənşəli mərasim oyunları kimi xarakterizə etmişlər [10, s. 214].

Qeyd etmək lazımdır ki, adı çəkilən tədqiqatçıların əsərlərində bu tamaşaların vizual təsvirlərinə rast gəlinmir. Lakin Kubra Əliyeva tərəfindən aparılmış araşdırmalar nəticəsində "Kilimarası" oyununun konkret icra səhnəsi ilk dəfə foto şəklində sənədləşdirilmişdir. O, başdan-ayağa qırmızı geyinmiş gəlin toyu zamanı aşıqların musiqi müşayiəti ilə təşkil olunan bu tamaşanın görüntüsünü çəkərək "Azərbaycanın xovsuz xalçaları" adlı əsərində təqdim etmişdir.

"Kilimarası" tamaşasının icra qaydası olduqca maraqlı və özünəməxsus teatr elementləri ilə zəngindir. Şənlik zamanı istər qapalı məkanda, istərsə də açıq havada yerə palaz sərilir, onun qarşısına isə səhnə funksiyasını yerinə yetirən gözəl bir kilim asılır. Tamaşanı ifa edən şəxslərin barmaqlarına nazik taxta və ya çubuq parçaları bağlanır ki, bu da kuklaların qollarını əvəz edir. Müqəvvalar ifaçıların əllərinə və dizlərinə bərkidilir, ifaçılar isə palaz üzərində uzanaraq gizlənirlər.

Oyun başladıqdan sonra ifaçılar görünməz qalır və bütün hərəkətlər kilimin arxasında həyata keçirilir. Aşıqların ifa etdiyi musiqi sədaları altında kişi və qadın kuklalar hərəkət etdirilərək canlı təsir bağışlayır. Gəlin obrazını təmsil edən kukla musiqinin ritminə uyğun şəkildə rəqs edir. Onunla yanaşı kişi kukla da rəqs edir və qadına yaxınlaşmağa, onu qucaqlamağa çalışır. Lakin qadın obrazı özünü həyalı və ismətli apararaq bu cəhdlərə qarşılıq vermir.

Bir müddət sonra kişi obrazı yorulmuş kimi səhnədən kənarlaşır və "yatmağa gedir". Gəlin onun yatdığına əmin olmaq üçün işarə verir və bu zaman başqa bir kişi kukla, "gəlinin oynaşı" meydana çıxır. Onlar birlikdə rəqs edir, yaxınlıq nümayiş etdirirlər. Lakin gözlənilmədən ər obrazı yenidən ortaya çıxır, baş verənləri görür və əlindəki xəncərlə həm oynaşı, həm də arvadını cəzalandırır. Tamaşa bu dramatik səhnə ilə yekunlaşır [6, s. 19-22].

Bu oyunun əsas ideyası xalqın mənəvi dəyərlər sistemini əks etdirməkdən ibarətdir. "Kilimarası" vasitəsilə babalarımızın qeyrətsizliyə dözməməsi, ailə sədaqətinə və əxlaqi saflığa verdiyi yüksək qiymət nümayiş etdirilir.

"Maral" oyunu isə başqa bir maraqlı xalq tamaşasıdır. Bu oyunda parçadan hazırlanmış maral fiquru yerdə sürünərək hərəkət etdirilir və tamaşaçılar onun son anlarını izləyirlər. Tamaşanın məzmunu maralın su içmək üçün su mənbəyinə gəlməsi və ovçular tərəfindən pusquya düşərək öldürülməsi üzərində qurulmuşdur. Bu oyun həm təbiət-insan münasibətlərini, həm də ovçuluq ənənələrinin dramatik tərəflərini əks etdirən simvolik məna daşıyır.



Kəlbəcər rayonu Ağcakənd kəndində aşıqların müşayiəti ilə "Kilimarası" xalq kukla tamaşası. 1984-cü il. [5, s. 149]



"Maral" oyunu [7]

Qədim rəvayətə görə, boylu-buxunlu, gözəl bir çoban varlı bir ailənin qızına aşiq olur və bu sevgi qarşılıqlı xarakter daşıyır. Gənclər fürsət düşdükcə meşə talasındakı bulaq başında görüşərək bir-birlərinə sədaqət andı içirlər. Belə görüşlərin birində onlar bir maral balası tapır, onu sevib oxşayır, bəsləyir və zamanla bu heyvan da onlara alışaraq hər gün bulaq başına gəlib onları gözləyir. Maral iki aşiqə elə bağlanır ki, onların arasında uzanır, onların qayğısından və sevgisindən məmnunluq duyur. Lakin günlərin birində maral bulaq başında nə qədər gözləsə də, aşiq gənclər gəlmir. Tezliklə məlum olur ki, qızın valideynləri onun çobanla münasibətindən xəbər tutaraq onu ev dustağı etmiş və varlı bir ailəyə ərə vermək qərarına gəlmişlər. Bu məcburiyyətə tab gətirməyən qız özünə qəsd edir və toy mərasimi yasa çevrilir. Peşman olmuş valideynlər qızı həmin bulağın yaxınlığında dəfn edirlər. Çoban isə sevgilisinin faciəsinə dözə bilməyərək onun məzarı üstündə özünü xəncərlə öldürür. Kənd ağsaqqalları onları yanaşı dəfn edirlər. Rəvayətə görə, həmin andan etibarən maral

bu iki nakam aşiqin qəbirlərinin keşiyində dayanır, gecə-gündüz onların başında dolaşır və nəhayət, bir gün onların arasında uzandığı yerdə can verir.

Xalq bu faciəvi sevgi hekayəsini yaşatmaq məqsədilə "Maral" oyununu yaratmışdır. Bu oyun zamanı maral obrazı səhnədə qəbirlər üzərində dolaşır, sanki axtardığı şəxsləri tapa bilmirmiş kimi ətrafa boylanır. Musiqiçilər, zurna və ya balaban ifaçıları əvvəlcə şux havalar çalsalar da, maral bu ritmlərə uyğun hərəkət etmir. Nəhayət, "Maralı" adlı ahəstə və kədərli hava səsləndikdə maral oynamağa başlayır, lakin bu oyun sevinc deyil, kədər və həsrət ifadə edir. Tamaşanın sonunda maral aşiq gənclərin məzarları üzərinə baş qoyaraq sanki əbədi yuxuya gedir.

"Çilingağac" oyunu iki nəfər arasında oynanılan ənənəvi xalq oyunlarından biridir. Oyunda təxminən yarım metr uzunluğunda bir ağac və 20 sm ölçüdə digər ağacdan istifadə olunur. İştirakçılar bir-birindən müəyyən məsafədə dayanaraq kiçik ağacı böyük ağac vasitəsilə bir-birinə ötürür və çeviklik nümayiş etdirirlər.

"Moza-moza" oyunu da iki nəfər arasında keçirilir. Bu oyunda yumurta böyüklüyündə yumru daşdan istifadə olunur. İştirakçılar təxminən üç metr məsafədən yastı daş vasitəsilə dairə daxilində yerləşən "moza"nı vurmağa çalışırlar. Hədəfi vuran şəxs daşı götürərək qaçır, digər iştirakçı isə onu yerinə qaytarmalıdır. Əgər bu hərəkət vaxtında yerinə yetirilməzsə, qalib müəyyən olunur. Əks halda, hədəfi vura bilməyən oyunçu uduzmuş hesab edilir və oyundan kənarlaşdırılır.

"Bənövşə bəndirim düşə, sizdən bizə kim düşə" oyunu iki dəstə arasında oynanılır. İştirakçılar əl-ələ tutaraq sədd qurur, qarşı tərəfdən seçilən oyunçu qaçaraq bu səddi yarmağa və rəqib dəstədən bir nəfəri öz tərəfinə gətirməyə çalışır. Uğur qazanan tərəf qalib hesab olunur.

"Dala dəsmal" oyununda iştirakçılar dairəvi şəkildə oturur və gözlərini yumurlar. Bir nəfər əlində dəsmalla dairə ətrafında hərəkət edir və dəsmalı gizli şəkildə iştirakçılardan birinin arxasına qoyur. Əgər həmin şəxs bunu vaxtında hiss edərsə, dəsmalı götürərək oyunu davam etdirir; əks halda, yerini dəyişmək məcburiyyətində qalır.

"Gizlənpaç" və ya "Qaçdı-tutdu" oyunu isə uşaqlar arasında geniş yayılmışdır. Bir nəfər gözlərini yumaraq sayır, digərləri gizlənir. Oyunda "mətə" adlanan əsas nöqtə olur və kim ilk olaraq ora çatıb toxunarsa, qalib hesab edilir.

"Lək-tək" oyunu diqqət və təxmin bacarığına əsaslanır. İştirakçı əllərindən birində müəyyən əşyanı gizlədərək "lək, yoxsa tək" deyə soruşur. Düz cavab verən şəxs qalib olur, əks halda oyun davam etdirilir.

"Düymə-düymə" və ya "Köpük-köpük" oyununda düymələr və ya sikkələr üst-üstə yığılır və iştirakçılar onları vuraraq çevirməyə çalışırlar. Çevirməyi bacaran oyunçu qalib sayılır.

"Kəndirbaz" oyunu isə daha mürəkkəb və təhlükəli xalq oyunlarından biridir. Bu oyunda iki dirək arasında 2–3 metr hündürlükdə kəndir çəkilir və iştirakçı əlində uzun ağac (ləngər) tutaraq onun üzərində hərəkət edir. Musiqi müşayiəti altında ifa olunan bu oyun zamanı kəndirbaz müxtəlif akrobatik hərəkətlər nümayiş etdirir. Onun geyimi adətən milli elementlərlə - arxalıq, papaq və yun corablarla tamamlanır [10, s. 171-172].

Yuxarıda təqdim olunan oyun nümunələri Kəlbəcərin Mişli kəndindən olan həkim Lətifə xanımın söylədikləri əsasında toplanmışdır. Məlum olduğu kimi, Azərbaycan kəndlərində bu oyunların həm oxşar, həm də fərqli variantlarına rast gəlinir. Bu baxımdan regional xüsusiyyətlər xalq oyunlarının forma və məzmununa müəyyən təsir göstərmişdir. Məsələn, Kəlbəcərdə 1984-cü ildə Kəlbəcər muzeyinin direktoru Şamil Əsgərovun "Dağların hikməti" adlı əsərində bəzi oyunların fərqli icra formaları təsvir edilmişdir. Bu oyunlardan biri də "Qaz-qaz yallısı"dır. "Qaz-qaz yallısı"nın icrası

üçün əvvəlcədən bir nəfər təcrübəli oyunçu dəstəbaşı seçilir. Şənlik günü dəstəbaşı camaatı geniş meydançaya toplayır. Qara zurna ilə "Yallı" havası ifa olunur və oyunçular meydanın ortasında toplaşır. Şux geyimli dəstəbaşı əlindəki qamçını musiqinin ritminə uyğun şəkildə firladaraq oyunun başlanmasını elan edir. Rəqsin gedişində dəstəbaşı cibindən müxtəlif əşyalar, daraq, bıçaq, muncuq və ya boyunbağı çıxarıb yuxarı qaldırır. Oyun iştirakçıları da həmin əşyanı təqlid etməli və ya göstərməlidirlər. Əks halda, dəstəbaşı tərəfindən yüngül şəkildə qamçı ilə cəzalandırılırlar. Dəstəbaşı oyunun gedişində müxtəlif məzəli və gözlənilməz hərəkətlər nümayiş etdirir: bəzən üst-üstə geyindiyi şalvarlardan birini çıxarır, bəzən pencəyinin qolunu soyunur, bəzən də axsaya-axsaya yeriyir. İştirakçılar bu hərəkətləri təkrarlamalıdırlar. Təqlid etməyənlər isə yenə də cəza ilə üzləşirlər. "Qaz-qaz yallısı" oyunu iştirakçılardan diqqət, çeviklik və operativ reaksiya tələb edən, eyni zamanda əyləncə və kollektiv dinamika yaradan xalq rəqsi və oyun formasıdır. Maraqlıdır ki, bu oyun xalq arasında geniş yayılmış və hətta Kəlbəcərin sərt relyefli Dəlidağ ərazilərində belə icra edilmişdir.

Nəticə. Göründüyü kimi, təqvim anlayışı və yaz bayramı insanın təbiətlə qarşılıqlı münasibətləri fonunda formalaşmışdır. Onun yaranması ovçuluq, maldarlıq və əkinçilik kimi ilkin təsərrüfat formaları ilə sıx bağlı olmuş, fəsillərin ardıcıllığı və həyat tərzi ilə uzlaşaraq inkişaf etmişdir. Təqvim sistemi və yaz mərasimləri insanların yaşayış ehtiyaclarından doğmuş, əsrlər boyu təkmilləşərək sabit ənənəvi formaya düşmüşdür.

Başqa sözlə, yazın gəlişi, bahar mərasimləri və bu mərasimlərlə bağlı formalaşmış adət-ənənələr, oyunlar və rituallar əsasən təsərrüfat həyatının tələbləri ilə şərtlənmişdir. Bu ənənələr maldarlıq və əkinçilik fəaliyyətinin uğurlu təşkili, gələcək məhsuldarlığın təmin olunması və təbiətə uyğunlaşma məqsədi daşımışdır.

Beləliklə, Novruz bayramı və onunla bağlı adət-ənənələr xalq təqvimi ilə birbaşa əlaqədə olub, xalqın dünyagörüşünü, əmək fəaliyyətini və sosial münasibətlərini əks etdirən mühüm mədəni fenomen kimi formalaşmışdır. Bu zəngin irsin əsrlər boyu qorunub saxlanılması onun dərin köklərə malik olduğunu göstərir və gələcəkdə də yaşadılacağına əsaslı inam yaradır.

Ədəbiyyat:

1. Abdullayev B. "Novruz bayramı" // Elm qəzeti. – Bakı, 1989. – 25 fevral. – S. 4.
2. Cavadov Q. "Novruz adətləri" // Elm qəzeti. – Bakı, 1989. – 4 mart. – S. 4.
3. Dadaşzadə M. Azərbaycan xalq bayramları, oyun və əyləncələri. – Bakı: Elm, 1995.
4. Əliyeva K. Azərbaycan xalq bayramları, oyun və əyləncələri – Novruz adətləri. Novruz bayramı və Şəhriyarın "Heydər babaya salam" poemasında Novruz xatirələri // Ulusəs. – Bakı, 2016. – mart. – s. 4-5.
5. Əliyeva K. Azərbaycanın xovsuz xalçaları. – Bakı: Mütərcim, 2023.
6. Əsgər Ş. Dağların hikməti. – Bakı: İşıq, 1987. – S. 18–19.
7. Nemət K., Nərimanoğlu M. Kəlbəcər dünyası: folklor nümunələri (rəvayətlər, hikmətli deyimlər, xalq oyunları, məzəli əhvalatlar, lətifələr və bayatılar). – Bakı: Adiloğlu, 2009.
8. Nizamülmülk Ə.Ə. Siyasətnamə. – 2-ci nəşr. – Bakı: Elm, 1989.
9. Nəbiyev A. "Novruz" // Ədəbiyyat və incəsənət qəzeti. – Bakı, 1989. – 6 fevral. – № 5. – S. 2.
10. Rəhimli İ. Azərbaycan teatrı. Xalq oyun-tamaşaları. – Bakı: Qappoliqraf, 2002.
11. Şarden J. Səyahətnamə / tərc. və izahlar V. Aslanov. – Bakı: Elm, 1994.
12. Şəhriyar M. Aman ayrılıq (poema və şeirlər). – Bakı: Yazıçı, 1981.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300